# Həftəlik
# *Bülleten*



**128**

**6 Fevral 2026**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**“Şəhərsalma və Memarlıq İli” ilə bağlı Tədbirlər Planı təsdiqlənib – SƏRƏNCAM.**

"Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.
Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.
Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirəcək.
Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



**Bakıda "yaşıl bina"lar tikiləcək – SƏRƏNCAM.**

Azərbaycanda tikinti sahəsindəki qanunvericiliyə dəyişiklik edilməsi, "yaşıl tikinti" və "yaşıl bina" yanaşmalarının tətbiqi gözlənilir.

Bu prezident İlham Əliyevin yanvarın 30-da imzaladığı sərəncamla təsdiq etdiyi Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planında nəzərdə tutulub.

Planda dövlət qurumlarına tapşırıq verilir ki, şəhərlərdə iqlim dəyişikliyinin təsirlərinin azaldılması məqsədilə "yaşıl tikinti" və "yaşıl bina" yanaşmaları nəzərə alınmaqla şəhərsalma və tikinti qanunvericiliyinin təhlili, beynəlxalq təcrübənin araşdırılması və normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlansın.

Bu tapşırığın icraçıları Nazirlər Kabineti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzidir.



**Özbaşına tikilən evlər sənədləşdiriləcək? - Ekspert danışdı.**

Azərbaycanda özbaşına tikilən evlərin sənədləşdirilməsi məsələsi aktual olaraq qalır. Qeyri-rəsmi məlumatlara görə, ölkədə 400-500 min belə tikili mövcuddur. Daşınmaz əmlak eksperti Ramil Osmanlı məsələyə münasibət bildirərək problemin həlli üçün kompleks yanaşmanın vacibliyini vurğulayıb: "Əslində bir qərarla bu iki prosesi eyni vaxtda icra etmək olar. Yəni qərar verilir ki, amnistiya elan olunsun, özbaşına tikililər sənədləşdirilsin, sənədləşmə işlərinə başlanılsın və eyni qərarın tərkibində də digər bir bənd bütün rayon icra hakimiyyətlərinə və şəhərsalmaya cavabdeh olan qurumlara tapşırılsın ki, bu gündən etibarən özbaşına tikililərin həyata keçirilməsi ilə bağlı çox ciddi tədbirlər həyata keçirilsin, bunun qarşısı alınsın. Hətta oraya əlavə etmək olar ki, belə hallar aşkar olunduqda vəzifəli və fiziki şəxslərin inzibati və cinayət məsuliyyətinə cəlb olunması kimi maddələr də daxil etmək olar". Ekspert Elnur Azadov isə deyir ki, qanunsuz tikililərlə bağlı problem təkcə onların yerləşdikləri ərazilərlə əlaqədar deyil: "Qanunsuz tikililərin leqallaşması ümumi coğrafi baxımdan təhlil olunmalıdır. Təbii ki, bunların çox hissəsi ilk olaraq şəhərsalma planlamasına uyğun olmadığına görə həmin ərazi hamısı yaşayış məntəqələri kimi dövlət tərəfindən tanınmalıdır. Bu, birinci istiqamət. İkinci istiqamət isə bu kimi evlərin hüquqi normativ əsaslarından, şəhərsalma əsaslarından düzgün tikilməməsidir. Həddindən artıq çox sıx evlər var ki, orada hər hansı bir təhlükəsizlik təminatının gələcəkdə olması mümkün deyil".



**Azərbaycanda MTK-ların fəaliyyəti ilə bağlı yeni tələblər təklif olunur.**

Azərbaycanda tikintiyə başlamazdan əvvəl mənzil-tikinti kooperativləri (MTK) üçün bank zəmanəti və ya sığorta təminatı mexanizmlərinin tətbiqi nəzərdən keçirilməlidir. Bu təkliflə Milli Məclisin növbəti plenar iclasında deputat Razi Nurullayev çıxış edib. Deputat bildirib ki, tikinti yarımçıq qaldığı halda, bina məhz həmin təminat vəsaiti hesabına tamamlanmalıdır: "Təəssüf ki, mövcud qanunvericilik vətəndaşları tam qoruya bilmir. Konkret hüquqi mexanizmlərin yaradılmasına ehtiyac var. Bəzi MTK-ların məsuliyyətsizliyi, maliyyə intizamsızlığı və rəhbərlikdəki şəxslərin hüquqi problemləri səbəbindən minlərlə ailə yarımçıq qalmış binaların girovuna çevrilib". R.Nurullayev vətəndaşların ödədiyi vəsaitin birbaşa MTK-lara deyil, nəzarətli depozit hesablarına köçürülməsini təklif edib. Onun sözlərinə görə, bu vəsait tikintinin real mərhələlərinə uyğun olaraq mərhələli şəkildə istifadə olunmalıdır. "Dələduzluq və ya vəsaitin təyinatdan kənar istifadəsinə görə təkcə şirkət yox, rəhbərlik də məsuliyyət daşımalıdır. Belə hallara yol verən şirkət və şəxslər üçün uzunmüddətli tikinti qadağaları və ya daha sərt sanksiyalar tətbiq edilə bilər". O, dövlət nəzarətinin gücləndirilməsini, riskli MTK-lar üzrə "qara siyahı"nın hazırlanaraq ictimaiyyətə açıqlanmasını da təklif edib. Deputatın fikrincə, zərərçəkmiş vətəndaşlar üçün sürətli hüquqi mexanizmlər yaradılmalıdır.



**323 metrlik "Cipriani Tower" tikilir: Azərbaycanın ən hündür binası olacaq.**

Sea Breeze kurort şəhərciyində Azərbaycanın ən hündür binası hesab olunan Cipriani Tower inşa olunacaq. Yeni qüllə Xəzər dənizi sahilindəki Halfmoon adasında yerləşəcək. Bu bina 323 metr hündürlüyü ilə Azərbaycanın ən hündür binası olacaq. Binanın layihəsi dünyaca məşhur memar Shaun Killa tərəfindən hazırlanıb. Layihə Cipriani brendi altında 116 otaq üçün nəzərdə tutulmuş beşulduzlu Cipriani Resort Sea Breeze hoteli, həmçinin for-sale formatında 127-yə yaxın ultra-lüks rezidensiyanı özündə birləşdirən Cipriani Residences Sea Breeze yaşayış kompleksini ehtiva edir. Kompleksin infrastrukturuna banket və konfrans otaqları, təxminən 1647 kv.m sahəsi olan spa mərkəzi, Cipriani brendinə aid restoran və barlar daxildir. Cipriani Resort Sea Breeze və Cipriani Residences Sea Breeze-in gözlənilən açılış tarixi 1 oktyabr 2031-ci ildir.

Bildirək ki, yanvarın 31-də Milan şəhərində Sea Breeze kurort şəhəri ilə dünyaca məşhur Cipriani brendi arasında sazişin rəsmi imzalanması mərasimi keçirilib. Sənədləri Emin Ağalarov və Cüzeppe Çipriani imzalayıblar.



# ELAN

**Hörmətli sahibkarlar,**

Dövlət qurumları ilə görüşlərin təşkili ilə bağlı keçirilmiş səsverməyə əsasən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin məsul əməkdaşları ilə görüş üçün toplanmış səslər çoxluq təşkil etmişdir. Dəyirmi masa ətrafında baş tutacaq görüşdə hansı məsələlərin müzakirəyə çıxarılacağına dair mövzuları **10.02.2026-cı il tarixədək 010 250 03 24** mobil nömrəsinin whatsapp platformasına və ya **info@atmia.az** elektron ünvanına göndərməyinizi Sizdən xahiş edirik.



# ELAN

**Hörmətli sahibkarlar,**

12 fevral Saat 13:00 Bakı Kob evində Yapon İnvestor və İş adamları ilə yerli Sahibkarların görüşü baş tutacaqdır.
Azərbaycandan Yaponiyaya ixracat etmək istəyən, Yaponiyadan hər hansı bir məhsul və ya xidmət, nümayəndəlik almaq istəyən sahibkarlar dəvətlidir. Tədbirdə Yaponiyanın Şinzekay təşkilatının iştirakı planlanır. Şinzekay Sizin Yapon bazarına çıxışınız üçün əsas rolu oynaya biləcək qurumdur.
Tədbirdə iştirak etmək istəyən sahibkarların aşağıdakı linkdən qeydiyyatdan keçməsi xahiş olunur.
https://forms.gle/Ghq1bMPNSrCE354D6
İştirak tam ödənişsizdir!



# ELAN

**Hörmətli sahibkarlar,**

26 fevral 2026-cı il tarixində, saat 11:00-da Gürcüstanın Kaxeti diyarında yerləşən Tsinandali Estate, A Radisson Collection Hotel-də "Gürcüstan – Azərbaycan – Türkiyə Biznes Forumu" keçiriləcəkdir. Tədbir Gürcüstanın Ticarət və Sənaye Palatası və Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun birgə təşkilatçılığı, Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Biznes Forumda Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri, xanım Mariam Kvrivişvili, Azərbaycan Respublikasının İqtisadiyyat naziri, cənab Mikayıl Cabbarov və Türkiyə Respublikasının Ticarət naziri, cənab Ömər Bolatın iştirakı nəzərdə tutulur. Tədbir çərçivəsində üç ölkənin iş adamları arasında B2B görüşlər təşkil olunacaqdır.
Sözügedən tədbirdə iştirak maraqlı olduğu halda **050 265 36 34** nömrəsi ilə əlaqə saxlamanız xahiş olunur.



**ATMİA və "ATOSLİM LUXE" şirkətinin təşkilatçılığı ilə işgüzar səhər yeməyi tədbiri keçirildi.**

6 fevral tarixində ATMİA və "ATOSLİM LUXE" şirkətinin təşkilatçılığı ilə işgüzar səhər yeməyi tədbiri keçirildi. Görüşdə "ATOSLİM LUXE" şirkətinin məhsulları barədə ətraflı məlumat verildi. Assosiasiyanın Baş katibi, əməkdaşları və üzvlərinin iştirak etdiyi tədbirdə biznes mühitinin inkişafı, ATMİA və şirkətlərarası qarşılıqlı əməkdaşlıq, dövlət qurumları ilə görüşlərin təşkili və digər perspektivlər barədə geniş fikir mübadiləsi aparıldı.
"ATOSLİM LUXE" şirkətinin timsalında bütün üzvlərimizin fəaliyyətində uğurlar və davamlı inkişaf arzulayırıq.



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: FOR WOOD 2026**

**Tarixlər: 12 - 14 fevral 2026-cı il,**

**Məkan: PVA Letnany - Praqa Sərgi Mərkəzi Letnany, Praqa (Çexiya)**

Taxta Binalar və Tikintidə Ağacdan İstifadə Sərgisi. FOR WOOD ticarət sərgisi, taxta binalara, konstruksiyalara və materiallara yönəlmiş, müasir tikinti sənayesi üçün innovativ həllər təklif edən nüfuzlu bir tədbirdir.

**Sərginin adı: CLIMATE WORLD MOSCOW 2026**

**Tarixlər: 16 - 19 fevral 2026-cı il,**

**Məkan: Timiryazev Mühəndislik Mərkəzi, Moskva (Rusiya)**

Rusiyada keçirilən Beynəlxalq İstilik, Ventilyasiya, Kondisioner və Soyutma Sərgisi. CLIMATE WORLD müasir iqlim sənayesini formalaşdıran geniş çeşidli texnologiyalar təqdim edir.

**Sərginin adı: CONCRETE EXPO POLAND 2026**

**Tarixlər: 17-19 fevral 2026-cı il,**

**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**

Beton Sərgisi, sənaye və tikintidə beton texnologiyası və tətbiqləri üzrə aparıcı ticarət sərgisidir. Beton istehsalı, əvvəlcədən tökmə sistemləri, möhkəmləndirmə texnologiyaları, tikinti kimyəvi maddələri sahəsində qabaqcıl həllər.

**Sərginin adı: KYIVBUILD UKRAINE 2026**

**Tarixlər: 18-20 fevral 2026 -cı il,**

**Məkan: Kiyev Beynəlxalq Sərgi Mərkəzi, Kiyev (Ukrayna)**

Ukraynanın tikinti bazarında aparıcı sərgi olan KyivBuild, sənayedəki bütün inkişafları və nailiyyətləri nümayiş etdirir. Ukraynanın tikinti və tikinti sənayesinin bütün əsas sektorlarını əhatə edir.

**Qubadlıda 36 milyon manata yeni yaşayış məhəlləsi tikiləcək**
**TENDER ELAN EDİR.**

"Cəbrayıl, Qubadlı və Zəngilan Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsi (VÖEN – 5200287501) açıq tender elan edir.
Tenderin predmeti Qubadlı şəhərində yerləşən yaşayış məhəlləsinin tikinti-quraşdırma işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zaur İbrahimov - Satınalmalar və təchizat departamentinin müdiri
Email: zaur.ibrahimov@jgz.gov.az
Əlaqə telefonu: +994 51 207 89 98



**Ağdamda 1.4 milyon manata Ailə sağlamlıq mərkəzi tikiləcək tender elan edir.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti PHŞ (VÖEN – 3201635961) açıq tender elan edir.
Tenderin predmeti Ağdam rayonunun Xıdırlı kəndində Ailə sağlamlıq mərkəzinin (Həkim tibb məntəqəsi, Təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayış üçün qonaq evi) tikinti işləridir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fərid Əzizov - Satınalma üzrə Baş məsləhətçi
Email: f.azizov@afxbti.gov.az
Əlaqə telefonu:+994 50 672 37 77



**Hadrutun su təchizatı 9 milyon manata yenilənəcək.**

"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" PHŞ (VÖEN – 1300300711) açıq tender elan edir.
Tenderin predmeti Hadrut qəsəbəsinin xarici su təchizatı, tullantı su şəbəkə və qurğuların tikintisidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əlaqələndirici şəxs:Yusif Hüseynov-Planlama və Satınalmaların Təşkili şöbəsi baş məsləhətçi-şöbə müdirinin müavini
Email: yusif.huseynov@toom.gov.az
Əlaqə telefonu: +994 55 225 12 31



**QAZAX RAYONU İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Qazax Rayonu İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Qazax şəhərində yolların əsaslı təmiri işlərinin yerinə yetirilməsi ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Qurban Babayev, sektor müdiri baş mühasib
Email: qurban.babayev@qazax-ih.gov.az
Əlaqə telefonu: +994 70 270 21 15



**“CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLAN RAYONLARINDA BƏRPA, TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ” PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

“Cəbrayıl, Qubadlı Və Zəngilan Rayonlarında Bərpa, Tikinti Və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda Cəbrayıl şəhərində yerləşən tarixi-memarlıq abidəsinin bərpası və yenidənqurulması işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zaur İbrahimov, Satınalmalar və təchizat departamentinin müdiri
Email: zaur.ibrahimov@jgz.gov.az
Əlaqə telefonu: +994 51 207 89 98





**www.atmia.az**